United States Embassy Tbilisi

Center for Media Information and Social Research



# AÇIQ İNFORMASIYANIN ƏLÇATANLIĞI 2023-2024

**2024-cü il, sentyabr**

Layihənin rəhbəri: Ekaterine Basilaia

Layihənin tədqiqatçıları: Mamuka Andğuladze, Nino Narimanişvili, Manon Bokuçava, Xatia Ğuraşvili və Dea Manaqadze

Sənəd üzərində işlədilər: Ekaterine Basilaia, Mamuka Andğuladze, Nino Narimanişvili, Manon Bokuçava, Xatia Ğuraşvili Dea Manaqadze və Ana Keşelaşvili.

Sənəd "Media, informasiya və sosial tədqiqatlar mərkəzi" (CMİS) tərəfindən ABŞ-ın Gürcüstandakı səfirliyinin maddi dəstəyiylə hazırlanıb. SƏnədin məzmununa görə məsuliyyəti "Media, informasiya və sosial tədqiqatlar mərkəzi" daşıyır və o, donorun fikir və düşüncələrini əks etdirməyə bilər.

Sənəddən çıxarışların istifadəsinə yalnız mətnin bütövlüyünün qorunması, çıxarışın kontekstdən kənar istifadə edilməməsi şərti ilə icazə verilir.

# İçindəkilər


Giriş 4

Əsas Tapıntılar: 5

Böyük Şəkil - Açıq İnformasiya Sorğularının Cavablandırılması 6

Dövlət İnstitutlarının Reaksiyası – detallı şəkildə 11

Tələb olunan informasiyanın məzmunu 14

YEKUN 16

# Giriş

2023-cü ilin sentyabr ayından etibarən 2024-cü ilin avqust ayı da daxil olmaqla  “Media, informasiya və sosial tədqiqatlar mərkəzi” ABŞ səfirliyinin Demokratiya Komissiyasınnı kiçik qrantlar proqramının dəstəyiylə “Açıq informasiyaya əlçatanlığın artırılması yoluyla media azadlığına və vətəndaşların iştirakına dəstək” layihəsi həyata keçirdi. Layihənin məqsədi açıq informasiyanın hazırlanması zamanı media vasitələri və vətəndaşlara dəstək olmaq, həmçinin, media vasitələriylə partnyorluq edərək onlar tərəfindən tələb olunan açıq informasiya haqqında statistic məlumatlar toplamaq və ictimai qurumlar tərəfindəən bu tələbə verilən reaksiyanı monitoring etmək idi. Bu sonuncu bizə, maraqlanan şəxslərin başqa-başqa ictimai qurumların media, vətəndaşlar və bizim təşkilat tərəfindən tələb edilən informasiyaya necə cavab verməleriylə tanış ola biləcəkləri məlumat bazası yaratmağa imkanı yaratdı. Mərkəzi və yerli hakimiyyət orqanlarının açıq informasiya sorğularına cavabı bizə göstərdi ki, Gürcüstan qanunvericiliyi ilə açıq informasiyaya çıxışın təmin edilməsi fonunda problem nə qədər sistemlidir. Gürcüstan Konstitusiyasının 17-ci maddəsi açıq informasiyaya çıxışı əsas hüquq kimi təmin edir, Ümumi İnzibati Məcəllə isə ictimai məlumatların əlçatanlıq və əldə edilmə qaydasını müəyyən edir. İnzibati orqanların qanuni öhdəliyi tələb olunan açıq informasiyanın vaxtında və düzgün çatdırılmasını təmin etməkdir.

Layihə çərçivəsində monitorlar bütün həvəsli jurnalistlərə/media vasitələrinə, eləcə də digər fərdi şəxslərə açıq informasiyanın əldə edilməsi prosesində köməklik göstəriblər. Məlumatlar 2023-cü ilin sentyabrından 2024-cü ilin iyuluna qədər olan müddətdə toplanılıb. “Media, İnformasiya və Sosial Tədqiqatlar Mərkəzi”-nin tədqiqatçıları Gürcüstanın demək olar ki, bütün bölgələrində fəaliyyət göstərən 46 media orqanı ilə əməkdaşlıq edərək məlumat toplayıblar. Eyni zamanda, inzibati orqanlardan və dövlət qurumlarından sorğulanan informasiyaya vətəndaşların reaksiyası ilə bağlı məlumatlar toplanıb. Layihədə verilənlər bazasının yerləşdirildiyi və hər kəsin (vətəndaş və təşkilat) ismarıc göndərərək açıq informasiya sorğusu hazırlamaqda layihə əməkdaşlarından kömək əldə edə biləcəyi internet səhifəsi (www.cmis.ge) hazırlanmışdır.

## Əsas Tapıntılar:

- Açıq informasiyanın təqdim edilməsi öhdəliyini daşıyan qurumlar qəbul edilən sorğuların 41%-nə heç bir reaksiya verməyib və ya sorğuların 18%-ndə qanunla təyin olunan cavab müddətini pozublar.
- Ümumi cəmdə mərkəzi və yerli qurumlara daxil olan açıq informasiya sorğularının yalnız 26%-i tam cavablandırılıb.
- Mərkəzi qurumların yarısından çoxu (53%) açıq informasiya sorğusuna cavab vermirlər. Bununla belə, sorğuların 11%-nə cavabın təmin olunması gecikdirilmişdir.
- Mərkəzi qurumlar nadir hallarda sorğunu tam cavablayırlar – 19%.
- Yerli qurumlar tələblərin 38%-ni cavabsız qoyub, tələblərin 20%-nə isə gecikmiş cavab verib.
- Yerli qurumlar qəbul etdikləri məktubların ancaq 28%-nə tam cavab veriblər.
- Dövlət orqanlarına göndərilən açıq informasiya sorğularının mövzusu əsasən sosial məşğulluq proqramı ilə bağlı olub (22%), onlardan 55%-i cavabsız qalıb, alınan cavabların demək olar ki, yarısı - 49%-i təyin olunan müddəti pozaraq göndərilib. Tam şəkildə cavab sorğuların yalnız 12%-nə, qismi cavab isə 10%-nə göndərilib. İkinci ən çox tələb edilən mövzu bələdiyyə büdcəsinin xərclənməsi haqqında olub, beləki daxil edilən tələblərin 20%-i bu mövzuyla əlaqədar olub və sorğuların dörddə biri - 25 faizi, cavabsız qalıb. Əldə edilən cavabların 31%-ində göndərilmə müddəti pozulub. Mütəşəkkil cavab isə sorğuların yalnız 24%-ində qeydə alınıb.

İnformasiyanın qismən yayılması bəzi hallarda KİV-in məzmununa təsir etmək cəhdi kimi qiymətləndirilə bilər, çünki qanunun tələbinə baxmayaraq, informasiyanın hansı hissəsinin KİV-ə verilməsinə dövlət qurumu özü qərar verir və bununla da mediayanın yarada biləcəyi işlərin məzmununa təsir göstərir.

Araşdırmada müəyyən edilmiş mərkəzi və yerli qurumlar tərəfindən şəffaflığın və hesabatlılığın olmaması ictimai nəzarət və hesabatlılığa mane olur ki, bu da öz növbəsində qərarların qəbulu prosesinə ictimaiyyətin cəlb olunmasını, ictimaiyyətin məlumatlandırılmasını və vəzifəli şəxslərə məsuliyyətin yüklənməsini çətinləşdirir.

# Böyük Şəkil - Açıq İnformasiya Sorğularının Cavablandırılması

Toplanmış statistik məlumatlara əsasən, müxtəlif qurum və təşkilatlara 1863 açıq məlumat sorğusu məktubu göndərilib. Onlardan 86-sı vətəndaşların təşəbbüsü əsasında "Media, informasiya və sosial tədqiqatlar mərkəzi" tərəfindən göndərilib.[1]

Açıq informasiya tələbiylə ünvanlanan məktubların üçdə birindən çoxu, yəni 41%-i (764 məktub) ümumiyyətlə cavabsız qalıb, 18%-i (341) isə qanunla müəyyən edilmiş müddətdən gec cavablandırılıb.

Nəhayətində, sorğu edilən informasiyanın tam və ya qismən təqdim edilməsindən və ya sorğuya rədd cavabı məktubu gəlməsindən asılı olmayaraq, cavabın gecikdirilməsi qanun pozuntusu halı hesab olunur.

**Diaqram 1. İnformasiya tələbinə cavab**




Daha detallı baxsaq, aşağıdakı cədvəldən aydın şəkildə görmək olar ki, açıq informasiya sorğusunun dörddə birindən bir qədər çoxunda, 26,2%-ində (488) tam cavab alınıbb, lakin bu cavabların 26%-i (128) qanunən nəzərdə tutulan müddətin pozulmasıyla çatdırılıb. Sorğuların demək olar ki, üçdə biri - 30,5%-i (569) müvafiq qurumlar tərəfindən qismən cavablandırılıb. Burada da müddəti pozaraq verilən informasiyanın payı yüksəkdir - 35% (201). Cavab verməkdən yazılı imtina məktubu 27 (1,4%) halda göndərildi ki, onların da demək olar ki, üçdə birində yəni, 30% -ində (8) cavab gecikdirilmişdir. "Digər" kateqoriyasında qeyd olunan 15 (0,8%) halda sorğu məlumatlarının təhlili müddətində statusları dəyişməyən, sorğu tələbinin yerinə yetiriləcəyi cavabı alınan aralıq cavablar nəzərdə tutulur.

1 Bu göstəricilər yalnız bizimi əlimizdə olan məlumatların təsviridir və hər hansı bir bölgənin mediasının və ya vətəndaşlarının az və ya çox iştirakını, yaxud hər hansı bölgənin qurumlarına və ya onlar tərəfindən az və ya çox diqqəti dəlalət etmir. Bu göstəricilər ümum üçün xarakterik qəbul edilməməlidir və buna görə də onların təhlili yalnız region daxilində nisbətlərin müəyyən edilməsi və müqayisəsi yolu ilə mümkündür və onların nəticələri aşağıda daha ətraflı təqdim olunacaq.

**Diaqram 2. İnformasiya tələbinə reaksiya**




*Qeyd: Bu cavablara həm vaxtında, həm də vaxtından gec cavablanan sorğu cavabları daxildir.*

Əgər yuxarıda qeyd olunan məlumatlara əsasən, jurnalistlərin/təşkilatların informasiya sorğusuna göndərilən tələblərin yarısıdan çoxunda müəyyən cavab aldığını görürüksə, aşağıdakı diaqram onların müvafiq qurumlardan həmin informasiyanı nə qədər müəyyən edilmiş müddətdə əldə etdiklərini aydın göstərir və  təyin edilmiş müddətdə və gecikməli göndərilən cavabların payını özündə əks etdirir.

**Diaqram 3. Təyin olunan vaxtda və gecikdirilmiş şəkildə alınan cavablar**



Ümumi şəklə baxsaq görərik ki, göndərilən 1863 sorğudan ancaq 360 tələbin cavabı qanunla təyin olunan müddət ərzində təmin edildi. 368 sorğuya qismi cavab göndərildi, yazılı rədd cavabı isə 19 halda göndərildi.  Göndərilən sorğulardan 11-nin başqa status var, çünki həmin sorğulara ya aralıq cavab alınmışdır, ya da cavab olaraq elə bir məktub göndərilmişdir ki, onu əvvəlcədən təyin olunan heç bir meyara daxil etmək mümkün olmamışdır.

Verilənlər açıq informasiyaya çıxış yönündə mövcud sistemik problemləri və pozuntuların çoxnövlülüyünü aydın şəkildə özündə əks etdirir. Məsələn, gecikdirilmiş cavab ola bilsin ki, media, vətəndaş və ya istənilən şəxs üçün sonradan lazımsız olsun. İnformasiya tez xarab olan məhsul kimi qəbul olunur və konkret situasiyalarda onun gec təhvili qanun pozuntusu olmaqla yanaşı, həm də xüsusən medianın işində konkret zaman üçün aktual olan məlumatın işıqlandırılmasında ona ciddi maneə yaradır.

Təyin olunmuş müddətdə 1863 tələbin yalnız 19%-nə (360) tam cavab gəlməsi çox aşağı göstəricidir. Açıq informasiyayla bağlı sualları səthi və qeyri-müəyyən cavablar almaq da, həmçinin, təəssüflər olsun ki, yayğın bir təcrübədir - demək olar ki, məlumat tələbinlərinin böyük əksəriyyətinə bu tərz cavab göndərilirdi.  Bunula yanaşı, qismi cavabların 35%-i təyin olunan müddətdən gec göndərilmişdir ki,  bu da məlumatı postensial olaraq daha səmərəsiz edir. Bütün bunlar başqa-başqa institutların informasiya tələbini tez-tez cavabsız qoyduğu müstəvidə baş verir. Bununla bağlı aşağıda daha ətraflə bəhs edəcəyik.

## *Mərkəzi və regional qurumların reaksiyaları*

Demək olar ki, bir il ərzində toplanan məlumatlara əsasəsn, media vasitələri və qeyri-hökumət təşkilatları “Media, informasiya və sosial tədqiqatlar mərkəzi” açıq informasiyanı ən çox Gercüstanın fərqli-fərqli mərkəzi qurumundan tələb edirdilər (göndərilən sorğuların ümumi sayının 21%-i). Bölgələr arasında İmereti bölgəsinin inzibati orqanlarına göndərilən tələblər olduqca çoxdur, beləki göndərilən sorğu sayının  Sameqrelo-Yuxarı Svaneti  və Kaxeti bölgəsində bu göstərici 10%-ə bərabərdir, başqa bölgələrdə isə 10%-dən azdır.  Aşağıdakı cədvəldə başqa-başqa bölgləin qurumlarından tələb edilən informasiyanın sayı və ümumi göstəricidəki payı detallı göstərilib.

Cədvəl 1.

| Mərkəzi və yerli hakimiyyət | tələb | Cavabsız | Gecikdirilmiş | Cavab vaxtında verilib |
|---|---|---|---|---|
| **Mərkəzi** | 390 (21%) | 207 (53%) | 44 (11%) | 139 (36%) |
| **İmereti** | 335 (18%) | 111 (33%) | 64 (19%) | 160 (45%) |
| **Sameqrelo - Zemo Svaneti** | 179 (10%) | 62 (35%) | 41 (23%) | 76 (42%) |
| **Kaxeti** | 178 (10%) | 61 (34%) | 53 (30%) | 64 (36%) |
| **Acara** | 142 (8%) | 58 (41%) | 25 (18%) | 59 (42%) |
| **Kvemo-Kartli** | 139 (7%) | 52 (37%) | 29 (21%) | 58 (42%) |
| **Samtsxe-Cavaxeti** | 133 (7%) | 47 (35%) | 22 (17%) | 64 (48%) |
| **Şida Kartli** | 105 (6%) | 51 (49%) | 21 (20%) | 33 (31%) |
| **Raça-Leçxumi - Zemo Svaneti** | 72 (4%) | 32 (44%) | 7 (10%) | 33 (46%) |
| **Tbilisi** | 66 (4%) | 34 (52%) | 3 (5%) | 29 (44%) |
| **Mtsxeta-Mtianeti** | 64 (3%) | 19 (30%) | 24 (38%) | 21 (33%) |
| **Quria** | 60 (3%) | 30 (50%) | 8 (13%) | 22 (37%) |
| **Cəm** | **1863** | **764 (41%)** | **341 (18%)** | **758 (41%)** |

Yuxarıda verilən cədvəldən də aydın görünür ki, həm mərkəzi, həm də bölgələrdə yerli inzibatı qurumlar açıq informasiya tələbinin ən az üçdə birini cavabsız qoyurlar. Çox vaxt cavablar qanunla təyin edilmiş müddətin pozuntusuyla göndərilir, məktubların heç yarısı belə on günlük müddət ərzində cavablandırılmayır.

Mövcud verilənlər bizə, mərkəzi qurumların və ümumilikdə bölgələrdəki qurumlar tərəfindən açıq informasıya tələbinə reaksiya vermə göstəricisini müqayisə etmək imkanı yaradır. Mərkəzi inzibati orqanlardan informasiya 390 dəfə, bölgələrdəki qurumlardan isə 1473 dəfə tələb edilmişdir. Aşağıda təqdim olunan diaqramdan da göründüyü kimi, göndərilən sorğuların əksəriyyəti – 53%-i (207), mərkəzi orqanlar tərəfindən cavabsız buraxılıb və yalnız 36%-inə (139) qanunla təyin olunan müddət ərzində cavab verilib, cavabların 11%-nə (44) isə cavab təyin olunan müddətdə göndərilməyib. Bölgələrdə cavabsız qalan sorğuların payı daha azdır, beləki o ümumi göstəricinin 38%-ini təşkil edir, vaxtında cavablandırılan sorğuların sayı isə cüzi olaraq bu göstəricidən daha çoxdur – 42%-dir (916). Sorğuların beşdə birinə - 20%-inə (297) qanunla təyin olunan müddəti pozmaqla cavab göndərilib.

## Diaqram 4. Mərkəzi və regional qurumların cavabı




Ümumilikdə, mərkəzi inzibati orqanlar tərəfindən açıq informasiya tələbinin ancaq 19%-inə (74) mütəşəkkil cavab verilib, 20%-i (79) isə qismən cavablandırılıb. 17 halda (4%) cavab verməkdən imtina edilib, 13 (3%) sorğunun isə status başqadır. Lakin əldə edilən cavabların demək olar ki, dörddə birində, yəni 24%-ində (44) cavablar təyin edilmiş müddət pozalaraq göndərilib.

Yerli qurumlar (özünüidarə, şəhər şurası (sakrebulo), meriya, o cümlədən Tbilisinin) tərəfindən tələblərin 28%-inə (414) mütəşəkkil,  33%-inə (490) qismi cavab göndərilib, 10 halda isə (1%) cavablamaqdan imtina məktubu göndərilib, ancaq 2 (0.1%) tələbin isə başqa statusu var. Qeyd etmək lazımdır ki, ümum cəmdə 916 sorğuya cavab göndərildi, lakin bunların ancaq 32%-i (297) qanunla təyin olunmuş müddətin ərzində müəllifinə çatıdırıldı.

## Diaqram 5. Mərkəzi və regional qurumların cavabı




*Qeyd: Bu cavablara həm vaxtında, həm də vaxtından gec cavablanan sorğu cavabları daxildir.*

Mərkəzi və regional məlumatların nisbətlərini müqayisə etsək, deyə bilərik ki, regional orqanlar mərkəzi orqanlardan fərqli olaraq tələb olunan məlumatlara tam və ya qismən daha çox cavab verirlər və sorğuları daha az cavabsız qoyurlar.

## Dövlət İnstitutlarının Reaksiyası – detallı şəkildə

Bütün Gürcüstan miqyasında toplanan məlumatlara əsasən, ən çox informasiya – 982 (52.7%) halda, yerli özünüidarə orqanlarından, meriya və şəhər şuralarından (sakrebulo) tələb olunub. İkinci olaraq isə, əksəriyyəi yerli özünidarə tərəfindən təsis olunan, dövlətin qurduğu qeyri-sahibkar, qeyri-kommersiya hüquqi şəxsləri (QKT) gəlir. QKT-lər üçün açıq informasiya tələbiylə edilən 451 müraciət halı öyrənildi.

Cədvəl 2.

| Dövlət qurumları | tələb |
|---|---|
| Yerli özünüidarə | 982 (52,7%) |
| QKHŞ | 451 (24,2%) |
| PHŞ | 183 (9,8%) |
| İcra Hakimiyyəti | 156 (8,4%) |
| Məhkəmə Hakimiyyəti | 30 (1,6%) |
| Müstəqil orqanlar | 29 (1,6%) |
| Dövlət şirkətləri | 17 (0,9%) |
| Qanunvericilik Hakimiyyəti | 9 (0,5%) |
| Başqa | 6 (0,3%) |
| **Cəm** | **1863** |

Cədvəldən göründüyü kimi, informasiya sorğusu 183 halda dövlət tərəfindən əsası qoyulan publik hüquqi şəxslərə (PHM), 156 halda isə hökumətə, nazirliklərə, prezident administrasiyasına və ya hesabatda icra hakimiyyəti orqanları kateqoriyasında birləşdirilən regional nümayəndələrə ünvanlanıb.

Məhkəmə hakimiyyətinə informasiya sorğusu ilə bağlı cəmi 30 müraciət halı qeydə alınıb. Dövlət əsaslı məhdud məsuliyyətli cəmiyyətlərə (MMC) yalnız 17 halda açıq informasiya sorğusu ünvanlandırılıb. Prokurorluğu, Xüsusi İstintaq Xidmətini, Tənzimləyici Komissiyaları, Mərkəzi Seçki Komissiyasını özündə ehtiva edən müstəqil qurumlardan 29 dəfə açıq informasiya tələb olunub. Cəmi 9 dəfə müraciət edilən qanunverici orqana və sadəcə 6 dəfə sorğu göndərilən digər növ təşkilatlara qarşı, məsələn, Milli Skrininq Mərkəzi, Gürcüstan Reqbi İttifaqı və s. tələbat az idi.

Aşağıda verilmiş diaqramda yuxarıda sadalanan orqanların qəbul etdiləri sorğulara necə reaksiya verdikləri əks edilib; sorğuları qanunla təyin olunmuş vaxt ərzində nə qədər cavablayırlar, müddətlə bağlı qanunu nə qədər pozurlar, məktubları hansı sıxlıqda cavabsız qoyurlar. Aydın olur ki, isətnilən növ institutda sorğunun cavablandırılması baxımından həm təyin olunan müddətin pozulması, həm də ümumiyyətlə sorğunu cavabsız qoyma halları olduqca sıxdır.

**Diaqram 6. İdarəetmə  qurumlarının cavabları**




Artıq qeyd olunduğu kimi, öyrənilən verilənlərə əsasən, yerli özünüidarəetmə orqanlarına daha çox ictimai məlumat tələbi ilə müraciət edilib və bu müraciətlərin demək olar ki, üçdə birində (31%) sorğu cavabsız qalıb, 20% isə verilmiş cavablar müəyyən edilmiş müddət pozularaqdan müəllifə qaytarılmışdır. Cavabların 33%-i hərtərəfli verilmiş, 36% -i isə sorğuya yalnız qismən və ya ümumi cavab verilmişdir. Dövlət əsaslı qeyri- sahibkarlıq, qeyri-kommersiya fəaliyyəti ilə məşğul olan hüquqi şəxslər açıq informasiya ilə bağlı müraciətləri daha çox - 55% hallarda cavabsız qoyurdular,  verdikləri cavabların əksəriyyətində isə (22%) təyin olunan müddətdən gec cavab veriblər. Onlar yalnız 19% hallarda sorğuya tam, 26% hallarda isə qismən cavab veriblər. Dövlət tərəfindən yaradılmış publik hüquqi şəxslərə nisbətən az müraciət  göndərilməsinə baxmayaraq, onlar da sorğuların 45%-ini cavabsız qoyub və göndərdikləri cavabların 13%-ini gecikdirilmiş şəkildə, təyin olunan müddəti pozaraq göndərdilər. Göndərilən sorğularda 25-25%-lik bərabər göstəriciylə cavablar tam və ya qismən təmin edilib. İcra hakimiyyətlərinə daxil olmuş 156 məlumat sorğusundan 93-ü , yəni 60%-i cavabsız qalıb. Məlumatların 11%-inə cavab gecikməli

qaytarılıb və yekunda sorğu edilən açıq informasiyanın yalnız 10%-i tam, 22%-i isə qismən cavablandırılıb. Digər rəsmi qurumlara informasiya sorğusu ilə daha az məktub göndərilib və biz onları ətraflı müzakirə etməyəcəyik, lakin bu hallarda cavabsız qalan məktubların üzərinə düşən hissə yüksəkdir.

Aşağıdakı cədvəl başqa-başqa idarəetmə institutları tərəfindən qaytarılan cavabların keyfiyyət və kəmiyyətini ətraflı şəkildə özündə əks etdirir.

Cədvəl 3.

| Idarəetmə institutları | Tam cavablanmış | Qismən cavablanmış | Cavab verməkdən imtina edilmiş | Başqa | Cəm | Buradan Gecikdirilmiş |
|---|---|---|---|---|---|---|
| **Yerli özünüidarə** | 320 (33%) | 355 (36%) | 6 (1%) | 1 (0%) | 682 | 194 (28%) |
| QKHŞ | 86 (19%) | 118 (26%) | 0 | 1 (0%) | 205 | 98 (48%) |
| PHŞ | 45 (25%) | 45 (25%) | 4 (2%) | 5 (3%) | 99 | 23 (23%) |
| İcra Hakimiyyəti | 15 (10%) | 35 (22%) | 8 (5%) | 5 (3%) | 63 | 17 (27%) |
| Məhkəmə Hakimiyyəti | 5 (17%) | 8 (27%) | 4 (13%) | 1 (3%) | 18 | 3 (17%) |
| Müstəqil orqanlar | 9 (31%) | 3 (10%) | 4 (14%) | 2 (7%) | 18 | 2 (11%) |
| Dövlət şirkətləri | 4 (24%) | 2 (12%) | 1 (6%) | 0 | 7 | 0 |
| Qanunvericilik Hakimiyyəti | 4 (44%) | 1 (11%) | 0 | 0 | 5 | 3 (60%) |
| Başqa | 0 | 2 (33%) | | | 2 | 1 (50%) |
| **Cəm** | **488 (44%)** | **569 (52%)** | **27 (2%)** | **15 (1%)** | **1099** | **341 (31%)** |

Ümumda 1863 məktuba 1099-nun cavab təmin edilib ki, bunların da demək olar ki, üçdə birində – 341(31%) qanunla təyin olunmuş müddət pozuntusu qeydə alınıb və bu öz özlüyündə idarəetmə institutları təərfindən açıq informasiyanın açıqlığının aşağı keyfiyyətdə olmasına dəlalət edir. Verilən cavabların yalnız 44%-i (488) tələblərə tam cavab verib, 52%-i isə (569) sorğunun tələbini yalnız qismən qarşılayıb. 27 (2%) sorğunu cavablandırmaqdan imtina edilib, 15 (1%) məktubun isə başqa status var.

Qeyd emtək lazımdır ki, yerli özünüidarə orqanları tərəfindən verilən mütəşəkkil cavabların demək olar ki, dörddə birində, yəni 24%-ində (82) qanunla təyin edilmiş müddətin pozulması halı qeydə alınıb ki, bu da o deməkdir ki, göndərilən 982 tələbin yalnız 238-ində tam cavab əldə edilib, 246-sında isə qismi cavab göndərilib. Qeyri-kommersiya, qeyri-sahibkarlıq fəaliyyətiylə məşğul olan şəxslərdən tələb edilən cavablarda da, təxmini olaraq 205 məktubdan 98-inə cavab gecikdirilmiş olaraq göndərilib, həmçinin qanunverici hakimiyyətə göndərilən 5 məktubdan 3-ündə qanunla təyin olunan müddət pozulmuşdur.

# Tələb olunan informasiyanın məzmunu

Tələb olunan məlumatın ən çoxu, 22% (415) hallarda sosial işlə təmin etmə proqramıyla əlaqədar idi. Bu tələblərin 55%-i cavabsız qalıb, əldə edilən cavabların təxminən yarısı, 49%-i (92) təyin olunmuş müddətdən gec göndərilib. Sözügedən sorğulardan 49-u üçün (12%) mütəşəkkil cavab təmin edilsə də, 42 (10%) tələb qismən cavablandırılıb.

**Diaqram 7. Tələb olunan informasiyanın tematikası**





CMIS

Haqqında sıxlıqla sorğu göndərilən bir digər mövzu bələdiyyə büdcəsinin xərclənməsi haqqında idi. Bənzər tələb bizim əlimizdə olan mövcud verilənlərin 20%-ini (365) təşkil edir. Həmin tələblərin 25%-i (93) cavabsız qalıb, əldə edilən 272 cavabın 31%-i (84) qanunla təyin olunmuş müddətdən gec müəllifinə təqdim edilib. Tələb edilən açıq informasiyaya mütəşəkkil cavab göndərilən 365 tələbdən yalnız 24%-ində təmin edilib, 89 cavab qanunla nəzərdə tutulan müddət daxilində göndərilib, 99 (27%) məktuba isə vaxt çərçivəsi qorunaraq natamam cavab göndərilib.

Digər mövzularla bağlı sorğu edilən məktubların sayı xeyli az olub. Onların müxtəlifliyi yuxarıdakı diaqramdan aydın görünür.

# YEKUN

Bu hesabatda 2023-cü ilin sentyabrından 2024-cü ilin iyul ayının sonuna qədər olan dövr üçün dövlət qurumlarından media və ictimaiyyət tərəfindən tələb olunan açıq informasiya verilənləri mülahizə edilmişdir. Təhlil edilən məlumatlar Gürcüstanda media və vətəndaşların informasiyaya çıxışı baxımından qarşılaşdıqları mühüm problemləri aydın şəkildə özündə əks etdirir. Cavabsız qoyulan və gecikmiş olaraq göndərilən  cavabların yüksək faizi problemin sistemliliyindən xəbər verir.

Dövlət qurumları tərəfindən, KİV və vətəndaşların ünvanladığı açıq informasiya sorğularını məlumatla təmin etməməsi şəffaflıq, hesabatlılıq və demokratik prinsiplər baxımından ciddi narahatlığa əsas yaradır. Mövcud vəziyyət dövlət institutlarına inamın itirilməsinə əhəmiyyətli dərəcədə təsir edir ki, bu da öz növbəsində demokratiyaya və vətəndaşların demokratik proseslərdə iştirakına xələl gətirir. Hesabatlılıq prinsipinə məhəl qoymamaq jurnalistlərin və vətəndaşların hökumətin fəaliyyətinə nəzarət etmək imkanlarını məhdudlaşdırır. Şəffaflığın aşağı səviyyədə olması korrupsiya və vəzifədən sui-istifadə üçün münbit zəmin yarada bilər. Bütün bunlar qanunvericiliyi, vətəndaşların və medianın hüquqlarını pozmaqla yanaşı, ölkənin demokratik inkişafına mane olur.

Kütləvi informasiya vasitələrinin açıq informasiyaya çıxışının məhdudlaşdırılması da medianın etibarına və reputasiyasına xələl gətirə biləcək hərəkət kimi qiymətləndirilə bilərik. Hər bir jurnalistika işi mövzusundan asılı olaraq açıq informasiyaya - onun işlənməsinə və təhlilinə ehtiyac duya bilər və bu hissə olmadan materialın nəşri, tamaşaçılarda inamsızlıq yaratmaq riski daşıyır. Ona görə də məsuliyyətli jurnalistikaya ictimai sektor tərəfindən məsuliyyətli mühit yaratmalıdır.

Vətəndaşlarda açıq informasiya tələbinin göstərisinin olduqca aşağı olması onu göstərir ki, bu məsələ ilə bağlı ictimaiyyətin şüurunun yüksəldilməsi və maarifləndirilməsi lazımdır ki, media və vətəndaş cəmiyyəti kimi vətəndaşlar da açıq məlumatı fəal şəkildə tələb etsinlər.

Bu hesabatın nəticələri açıq informasiyaya çıxışın yaxşılaşdırılması yönündə təcili ehtiyacın olduğunu vurğulayır. Bu isə informasiya azadlığına prinsiplərinin yerinə yetirilməsi üçün siyasi iradəyə əsaslanmalıdır ki,  qanunun tətbiqi üçün səmərəli mexanizmlər tətbiq edilsin, o cümlədən açıq informasiyanın verilməməsi halında məsuliyyət məsələsi müəyyənləşsin. Qeyd etmək lazımdır ki, bütün bunlarla yanaşı qanunvericilik səviyyəsində dəyişikliyi məsələsi də olduqca əhəmiyyətlidir, xüsusən də illər əvvəl vətəndaş sektoru tərəfindən hazırlanmış “İnformasiya azadlığı haqqında” qanun layihəsi müstəqil və aparıcı ekspertlər tərəfindən ən yüksək qiymətə layiq görülmüşdür. Lakin öhdəliyə baxmayaraq, hakim partiya sözügedən qanun layihəsini qəbul etməyib. Müvafiq olaraq, mövcud qanunvericilik sahəsinin təkmilləşdirilməsi baxımından yuxarıda qeyd olunan qanun layihəsinin təşəbbüsü və KİV, vətəndaş sektoru və başqa maraqlı tərəflərin cəlb edilməsi ilə daha qısa müddətdə qəbul edilməsi zəruridir.